# COINS FOUND IN THE CHOVDAR VILLAGE

**Lola Huseynova**[1]
**Aygun Mammadova**[2]
**Elnara Qazi-zade**[3]

**UDC:** 737(479.24):902.2(479.24 Chovdar)
**LBC:** 63.2:63.3:63.4(5Az)
**HoS:** 80
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.63-71

**Keywords:**

Late Middle Ages,
Coins,
Numismatics of Azerbaijan,
Archaeology of Chovdar village,
Ganja mint,
Davud bey Sharifov

## ABSTRACT

The article for the first time studies the coins of the Safavid state and Ganja Khanate discovered by prominent Azerbaijani archeologist Davud bey Mikail bey oglu Sharifov (1885-1952) during archeological and exploration works in Chovdar village in 1928 and further transferred to the Museum of History of Azerbaijan.

The study includes photos of silver coin - abbasi (7.4 g) minted during the reign of Safavid ruler Abbas II at Tiflis Mint (1053 AH = 1643-1644) and copper coin - fulus (8.8 g) of Ganja Khanate, as well as information about their inventory numbers registered in the Numismatics Fund of the National Museum of History of Azerbaijan.

Information about weight, inscriptions, mint, year of minting of such coins used in the monetary economy of Azerbaijan in the late Middle Ages, their practical significance, role in archeology and numismatics is also reflected in the article.

The results of the study of such coins are expedient to apply in numismatic determination of coins of Azerbaijan of 18th–19th centuries, in archaeological research, as well as in the educational process. Such finds are important facts for solving errors reflected in modern historical research and preaching.

[1] Senior Researcher of the Department of "Archaeological Research of New Construction Sites" of the Institute of Archaeology and Anthropology of ANAS; Baku, Azerbaijan (corresponding author)
E-mail: lola.l1987.ekber@mail.ru
https://orcid.org/0000-0001-7700-5422
[2] Doctor of Philosophy in History,
Chief Specialist of the Numismatic Fund of the National Museum of History of Azerbaijan, Teacher of the Western Caspian University; Baku, Azerbaijan
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191
[3] Teacher of the Western Caspian University; Baku, Azerbaijan
E-mail: elnara_qazizade@wcu.edu.az
https://orcid.org/0000-0001-9609-0589
**To cite this article:** Huseynova, L., Mammadova, A., & Qazi-zade, E. [2025]. Coins found in the Chovdar Village. *History of Science journal*, *6*(3), pp.63-71.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.63-71

***Article history:***
*Received: 13.02.2025*
*Accepted: 03.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ÇOVDAR KƏNDİNDƏ AŞKARLANMIŞ SİKKƏLƏR

**Lola Hüseynova**[1]
**Aygün Məmmədova**[2]
**Elnarə Qazı-zadə**[3]

**UOT:** 737(479.24):902.2(479.24 Çovdar)
**KBT:** 63.2:63.3:63.4(5Aze)
**HoS:** 80
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.63-71

**Açar sözlər:**

Son orta əsrlər, Sikkələr, Azərbaycan numizmatikası, Çovdar kəndi arxeologiyası, Gəncə zərbxanası, Davud bəy Şərifov

**ANNOTASİYA**

Məqalədə ilk dəfə olaraq Azərbaycanın görkəmli arxeoloqu Davud bəy Mikayıl bəy oğlu Şərifovun (1885-1952) 1928-ci ildə Çovdar kəndi ərazisindəki arxeoloji, kəşfiyyat işləri zamanı əldə etdiyi və Azərbaycan Tarixi Muzeyinə təhvil verilən Səfəvi və Gəncə xanlığının sikkələri tədqiq edilib.

Araşdırmada Səfəvi hökmdarı II Abbasın hakimiyyəti dövründə - Tiflisdə hicri 1053-cü (1643-1644) ildə zərb edilmiş gümüş sikkə - abbasının (7,4 q) və Gəncə xanlığının mis felsinin (8,8 q) fotoları və Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondundakı saxlanma inventarı təqdim edilib.

Sikkələrin çəkisi, üzərindəki yazılar, zərbxana, zərb ili, təsvirlər haqqında məlumatların verildiyi məqalədə həm də son orta əsrlərdə Azərbaycanın pul dövriyyəsində işlədilən belə sikkələrin təcrübi əhəmiyyəti, o cümlədən arxeologiyada və numizmatikadakı rolu göstərilib.

Belə sikkələr barədə olan nəticələri XVIII – XIX əsrlərə aid Azərbaycan sikkələrinin numizmatik təyinatında, arxeoloji tədqiqatlarda, o cümlədən tədris prosesində tətbiq etmək məqsədəuyğundur. Məhz belə tapıntılar müasir tarixi araşdırmalardakı yanlışlıqların həll edilməsi və təbliğində mühüm faktlardandır.

[1] AMEA Arxeologiya və Antropologiya İnstitutunun "Yeni tikinti sahələrinin arxeoloji tədqiqi" şöbəsinin böyük elmi işçisi; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: lola.l1987.ekber@mail.ru
https://orcid.org/0000-0001-7700-5422
[2] Tarix üzrə fəlsəfə doktoru,
Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunun baş mütəxəssisi, Qərbi Kaspi Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191
[3] Qərbi Kaspi Universitetinin müəllimi; Bakı, Azərbaycan
E-mail: elnara_qazizade@wcu.edu.az
https://orcid.org/0000-0001-9609-0589
**Məqaləyə istinad:** Hüseynova, L., Məmmədova, A., & Qazı-zadə, E. [2025]. Çovdar kəndində aşkarlanmış sikkələr. *History of Science jurnalı*, 6(3), səh.63-71.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.63-71

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 13.02.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 14.03.2025*
*Çapa qəbul edilmişdir: 03.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# МОНЕТЫ, ОБНАРУЖЕННЫЕ В СЕЛЕ ЧОВДАР

**Лола Гусейнова**[1]
**Айгюн Маммадова**[2]
**Эльнара Газы-зале**[3]

**УДК:** 737(479.24):902.2(479.24 Човдар)
**ББК:** 63.2:63.3:63.4(5Азер)
**HoS:** 80
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.63-71

**Ключевые слова:**

Позднее средневековье, Монеты, Нумизматика Азербайджана, Археология села Човдар, Гянджинский монетный двор, Давуд бек Шарифов

## АННОТАЦИЯ

В статье впервые исследованы монеты Сефевидского государства и Гянджинского ханства, обнаруженные выдающимся азербайджанским археологом Давуд беком Микаил бек оглу Шарифовым (1885-1952) во время археологических и разведочных работ в селе Човдар в 1928-м году, далее переданные в Музей Истории Азербайджана.

В исследовании предоставлены фотографии серебряной монеты – аббаси (7,4 г), чеканенной в период правления сефевидского правителя Аббаса II на монетном дворе Тифлис (1053 год хиджры = 1643-1644) и медной монеты - фельса (8,8 г) Гянджинского ханства, а также информация об их инвентарных номерах, зарегистрированных в Фонде Нумизматики Национального Музея Истории Азербайджана.

Информация о весе, надписях, монетном дворе, годе чеканки таких монет, используемых в денежном хозяйстве Азербайджана в позднем средневековье, их практическом значении, роли в археологии и нумизматике также отражена в статье.

Результаты изучения подобных монет целесообразно применять при нумизматическом определении монет Азербайджана XVIII-XIX вв., в археологических исследованиях, а также в учебном процессе. Именно подобные находки являются важными фактами для решения ошибок, отраженных в современных исторических исследованиях и проповеди.

[1] Старший научный сотрудник отдела «Археологические исследования новых строительных территорий» Института Археологии и Антропологии НАНА; Баку, Азербайджан (ответственный автор)
E-mail: lola.l1987.ekber@mail.ru
https://orcid.org/0000-0001-7700-5422
[2] Доктор философии по истории,
Главный специалист фонда Нумизматики Национального Музея Истории Азербайджана, преподаватель Западно-Каспийского Университета; Баку, Азербайджан
E-mail: aygun_kons@mail.ru
https://orcid.org/0000-0002-0274-5191
[3] Преподаватель Западно-Каспийского Университета; Баку, Азербайджан
E-mail: elnara_qazizade@wcu.edu.az
https://orcid.org/0000-0001-9609-0589
**Цитировать статью:** Гусейнова, Л., Маммадова, А., & Газы-заде, Э. [2025]. Монеты, обнаруженные в селе Човдар. *Журнал History of Science*, *6*(3), с.63-71.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.63-71

***История статьи:***
*Статья поступила в редакцию: 13.02.2025*
*Отправлена на доработку: 14.03.2025*
*Принята для печати: 03.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

2025-ci ildə Azərbaycanın ilk peşəkar arxeoloqu, ilk muzeyşünası, etnoqrafı və coğrafiyaşünası Davud bəy Mikayıl bəy oğlu Şərifovun (1885-1952) 140 illiyi tamam olur.

Görkəmli alim Azərbaycan Tarixi Muzeyində çalışdığı illərdə gərgin əməyi və elmi fəaliyyəti nəticəsində Azərbaycan Tarixi Muzeyinin arxeoloji və etnoqrafik fondlarını zənginləşdirmiş, Şəki, Qəbələ, Gəncə və d. rayonlara arxeoloji səfərlər təşkil etmiş, aparılan işlərin nəticələrinə dair elmi məqalələr nəşr etmişdir [Xəlilli, 2017, s.7]. Belə materialların sırasında numizmatik tapıntılar da yer alır. Həmin materiallar tarix elmləri doktoru, professor Yevgeni Aleksandroviç Paxomov (1880-1965) tərəfindən elmi əsaslarla qeydə alınaraq, numizmatik mənsubiyyəti müəyyənləşdirilmişdir.

Tədqiqata cəlb edilən materiallar Davud bəy Şərifovun 1928-ci ildə Gəncə qəzasının (hazırda Daşkəsən) Çovdar kəndi ərazisindəki arxeoloji qazıntılar zamanı yerli sakinlər vasitəsilə əldə etdiyi 5 ədəd sikkələrdir.

## 2.Çovdar kəndinin arxeoloji tədqiqi

Çovdar kəndinin arxeoloji tədqiqinə XX əsrin əvvəllərində başlanılmışdır [Xəlilli, 2017, s.201].

1903-cü ildə Q.O.Rozendorf, 1908-ci ildə Vladimir Adamoviç Skinder, 1921-ci ildə Ter Qukasov ərazidə çöl tədqiqat və kəşfiyyat işləri aparıblar [Xəlilli, 2017, s.202]. Azərbaycan Arxeoloji Komitəsinin tapşırığı ilə 1926-1928-ci illərdə arxeoloq Davud Şərifovun rəhbərliyi və iştirakı ilə ərazidəki kurqanlarda aparılan arxeoloji qazıntılar və tədqiqatlar sayəsində qədim dövrə aid daş qutu qəbirlər öyrənilmiş və abidədən materiallar (insan qalıqları, bəzək əşyaları, məişət qabları, ox ucluqları) toplanılmışdı [Hüseynova, 2024, s.106; Hüseynova & İbrahimova, 2025, s.247; Hüseynova, 2024, s.55; Садыхзаде, 1929, s.239; Гуммель, 1939, s.37; Джафарзаде, 1939, s.74].

XX əsr tədqiqatlarına əsasən Azərbaycanın digər yaşayış yerlərində olduğu kimi Çovdarda da yerli kənd əhalisinin ənənəvi şəkildə bir neçə əsr ərzində dəmir, mis filizinin çıxarılması və əridilməsi ilə məşğul olması müəyyən edilmişdir [11, s.263].

Çovdar kəndi ərazisində növbəti çöl tədqiqatları 2010-cu ildə ərazidə, Çovdar qızıl layihəsi çərçivəsində, dağ-mədən inşaatı ilə əlaqədar olaraq həyata keçirilib. Kəşfiyyat işlərinə arxeoloq Şamil Nəcəfov rəhbərlik edib [Nəcəfov, 2010, s.2-3; 19]. Daha sonra 2019 və 2021-ci illərdə “AzerGold” QSC-nin filiz emalı sahəsində mədən inşaat işləri zamanı aşkarlanmış son tunc - erkən dəmir dövrünə aid (e.ə. II min. sonu – I min. əvvəli) 214 daş qutu qəbirdən ibarət nekropol qazılıb. Arxeoloq alimlər Səfər Aşurov, Bəxtiyar Cəlilov, Müzəffər Hüseynovun rəhbərlik etdiyi arxeoloji qazıntılar zamanı çoxsaylı materiallar (silah, bəzək, məişət) sırasında həm də sikkəyəqədərki əmtəə vasitələri – kaurilər aşkarlanıb [Aşurov, & Cəlilov, 2019, s.616; Jalilov, Huseynov, & Huseynova, 2022, p.111; Hüseynova, 2024, s.55].

Çovdar ərazisindəki sonuncu arxeoloji qazıntılar 2024-cü ildə Lola Hüseynovanın rəhbərliyi ilə aparılıb. Qazıntı müddətində kurqanaltı daş qutu qəbir qazılıb [Hüseynova, 2024, s.206; Hüseynova, Cəlilov, et al., 2024, s.45].

## 3.Çovdar kəndində aşkarlanmış Səfəvi hökmdarı II Abbas (1052-1077 = 1642-1667) dövrünün gümüş sikkəsi – abbası

Səfəvi (gümüş abbası) və Gəncə xanlığının (mis fels) sikkələrinin aşkarlanma yeri, göstəriciləri bir sıra əsərlərdə öyrənilsə də [Rəcəbli, 2012, s.233; Раджабли, 2014, с.116], məqalədə araşdırdığımız Çovdar kəndindən tapılmış belə tapıntılara kompleks halda baxılmamışdır. Bu sikkələr haqqında ilkin məlumatlara t.e.d. Yevgeni Paxomovun və Hətəm Kəsəmənlinin əsərlərində rast gəlirik [Кечаманлы, 1966, с.137-138; Пахомов, 1938, с.51].

1928-ci ildə Çovdar kəndindən 4 km şimalda arxeoloq alim D.Şərifov gümüş sikkə aşkarlamışdı. Numizmatik təyinat nəticəsində sikkənin II Abbas dövründə Tiflisdə (hicri 1053 = 1643-1644) zərb edildiyi müəyyən edilmişdi [Пахомов, 1938, c.51].

Sikkənin üst tərəfinə ərəb qrafikası ilə: "Allahdan başqa ilah yoxdur, Muhəmməd Onun elçisidir, Əli Onun valisidir", arxa tərəfinə: "vilayət şahı Abbas, 1053, Tiflisdə zərb edilib" sözləri həkk edilmişdir [Şəkil 1].



**Şəkil 1.** *NF 4328. Gümüş abbası. Səfəvilər. II Abbas (hicri 1052-1077 = 1642-1643), hicri 1053 = 1643-1644, Tiflis, 7,4 q.*

## 4.II Abbas dövründə sikkə zərbi

I Səfi dünyasını dəyişdikdən sonra oğlu – II Abbasın culusu (taxta çıxma münasibətilə zərb edilən ilk sikkəsi) 16 Səfər hicri 1052 (16 may 1642) Kaşan şəhərində həyata keçirilmişdi. Yazılı mənbələrə görə həmin dövrdə II Abbas 9 yaşındaydı.

Onun hakimiyyəti dövründə Səfəvilər dövlətinin hərbi və siyasi həyatında önəmli hadisələr olmadı və ölkənin vacib iqtisadi sahələri (kənd təsərrüfatı, ticarət) inkişaf mərhələsində idi. Bu dövrdə Hollandiya, İngiltərə, Fransa, Rusiya, Hindistan və d. ölkələrlə ticarət geniş vüsət almışdı. Məhz bu ərəfədə xarici missioner və səyyahlar (Pyer Rafael dyu Mans, Jan Batist Tavernye, Jan Şarden, Melxisedek Teveno, Yan Yansen Streys və d.) Səfəvilər dövlətinə gəlirdilər və öz əsərlərində ölkənin siyasi-iqtisadi və sosial-ictimai həyatını, o cümlədən dövrün pul sistemini işıqlandırırdılar.

Bunların sırasındakı fransız tacir, səyyah Jan Batist Tavernye (1605-1689) qeyd edirdi ki, dövrün gümüş sikkələri yüksək keyfiyyətli və əyarlı idi. Qızıl sikkələr isə çoxsaylı deyildi və yalnız əlamətdar hadisələr münasibətilə zərb edilirdi. Bu dövrdə beynəlxalq ticarətdə Avropa qızıl sikkələri – dukatlar işlədilirdi.

J.B.Tavernye müxtəlif gümüş sikkə nominalları - 5 abbası, 2 ½ abbası, mahmudi, şahi və bisti haqqında məlumat vermişdi. Digər xarici səyyah J.Şardenin məlumatlarında isə 5 abbası, 3 abbası, 5 şahi, abbası, məhəmmədi, şahi, bisti və lari barədə yazılmışdı.

Beləliklə, numizmatik tədqiqatlara əsasən II Abbasın pul sistemində əsasən mövcud pul nominalları saxlanılmış və ciddi dəyişiklik edilməmişdi [Раджабли, 2014, c.117]. Lakin gümüş sikkə - abbasının çəkisində azalma müşahidə edilirdi. Bu sikkənin orta çəkisi 7,32 q, ağır çəkisi isə 7,4 q idi.

Təbriz, Ərdəbil, Həmədan, İsfəhan, Məşhəd, Lar, Qəndəhar, Şüştər, İrəvan, Dizful, Kerman, Şiraz, Huveyza, Gəncə, Şamaxı, Tiflis və d. şəhərlərdə [20] istehsal edilən belə gümüş sikkələrə (abbası, şahı, bisti, larin) ərəb qrafikası isə hökmdar adı, titulu, zərb ili, zərb yeri, şiə inancını əks etdirən dini yazılar həkk edilirdi. Belə sikkələrə nadir hallarda 12 imam adları və onların titulları zərb edilirdi. Xüsusən də belə zərb hicri 1063-1067 (1652-1656) illərin Gəncə, Tiflis və İrəvan gümüş sikkələrində tətbiq edilirdi.

II Abbasın ilk hakimiyyət illərində sikkələrə "vilayət şahının bəndəsi Abbas", üzərinə zərbxana və zərb ili həkk edilirdi. Hicri 1056-ci (1646-1647) ildən etibarən sikkələrə fars dilində iki misralıq şer həkk edilirdi.

Ən ağır çəkili gümüş sikkə (iyirmilik şahi) 36,9 qram, aşağı çəkili gümüş sikkə isə 0,7 qram idi. Bundan əlavə bu dövrdə qızıl əşrəfilər və mis sikkələr də zərb edilirdi [Раджабли, 2014, с.117].

**5.Çovdar kəndində aşkarlanmış Gəncə mis felsi**

Davud Şərifovun həmin ildə, sentyabr ayında elə həmin ərazidə aşkarladığı sikkələr sırasında 4 ədəd mis sikkənin Gəncə xanlığının mis felsləri olduğu müəyyən edilmişdi [Пахомов, 1938, с.60].

Hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan bu mis sikkələrdən birinin fotosunu, inventar nömrəsini və çəkisini ilk dəfə olaraq təqdim edirik [Şəkil 2, 8,8 q].



**Şəkil 2.** *NF 4325. Mis fels. Gəncə xanlığı. XVIII əsr, 8,8 q (at təsviri ilə)*

Sikkənin üst tərəfinə ərəb qrafikası ilə; “fels Gəncədə zərb edilib”, arxa tərəfinə sağa yönəlmiş at, arxa fonda ağac təsviri həkk edilib.

Numizmatik ədəbiyyatda belə mis sikkə - ikili fels (qazbəyi) və ya yarıbisti adlanır [21]. Dövrün bəzi mis felslərinin pul təsərrüfatında təkrar istifadəsi üçün onlar üzərinə sikkəüstü zərb (ərəb qrafikası ilə “raic” – “işlək” sözü ilə) həkk edilirdi.

XVIII əsrin sonunda Azərbaycanda işlədilən fərqli çəkili belə felslərə ərəb qrafikası ilə zərb yeri, sikkənin nominalı və heyvan təsvirləri (at, pələng, günəş, quş) zərb edilirdi. Göründüyü kimi sikkədə hökmdarın – xanın adı yoxdur.

**6.Gəncə xanlığında gümüş sikkə zərbi**

Numizmatik tədqiqatlara əsasən, Gəncə xanlığında gümüş sikkə (abbası) zərbinə digər xanlıqlara nisbətən daha tez, yəni Şahverdi xan (1747-1760) dövründə başlanılmışdı. Daha sonralar Məhəmməd Həsən xanın (1760-1780) dövründə bu zərbxanada “əs-soltan Nadir” tipli gümüş abbasıların zərbi davam etdirilmişdi.

1760-cı ildən Gəncədə “Ya Kərim!” xitabı ilə (3,84 q), həmçinin “Sahib əz-zamana” həsr edilmiş bir beytlik şeir olan gümüş abbasıların zərbi həyata keçirilirdi.

XVIII əsrin 80-ci illərində Gəncə zərbxanasında çəkisi azaldılmış (2-2,5 q) gümüş abbasıların zərb edilirdi. Cavad xan (1786-1804) dövründə də gümüş sikkə zərbində əsasən 2,5 qramlıq çəkiyə riayət edilirdi. Bu dövrdə həm də 5 abbası (12,5 q) və 10 şahi (6 q) nominallı gümüş sikkələr də istehsal edilirdi.

**7.Nəticə**

Azərbaycanın görkəmli arxeoloqu Davud Şərifovun 1928-ci ildə Gəncə qəzasının (hazırda Daşkəsən) Çovdar kəndi ərazisindəki arxeoloji kəşfiyyat işləri zamanı aşkarladığı 5 ədəd sikkələrin numizmatik təyinatı nəticəsində Səfəvilər (gümüş) və Azərbaycan xanlıqları (Gəncə, mis) dövründə pul təsərrüfatında işlədilən sikkələr müəyyən edilmişdi.

Araşdırmağa cəlb etdiyimiz sikkələr milli numizmatikamızı təmsil edən vacib faktlardır. Səfəvilər və xanlıqlar dövründə gümüş sikkələr başlıca, mis sikkələr isə daha az dəyərə malik sikkə vahidi olaraq işlədilirdi.

Dövrümüzədək gəlib çatmış Gəncə xanlığının sikkələri Azərbaycan zərbxanalarının fəaliyyətinin son yadigarlarıdır. Məlumdur ki, Rusiya tərəfindən işğal edildikdən sonra Azərbaycanda zərbxanaların fəaliyyətinə son qoyulmuşdu.

Xatırladırıq ki, məqalədə tədqiq etdiyimiz sikkələr Azərbaycanın digər rayonlarında da tapılıblar.

Hazırda bəzi İnternet resurslarında Səfəvi sikkələri sülalənin adı ilə təqdim edilsə də, Azərbaycan xanlıqlarının sikkələri "Late Northern and Southern Caucasus" (son orta əsrlərdə Şimali və Cənubi Qafqaz) adı ilə təqdim edilir.

## 8.REFERENCES


1. Ashurov, S., & Jalilov, B. (2019). Report on the Chovdar necropolis. *Azerbaijan National Academy of Sciences, Institute of Archaeology, Ethnography and Anthropology, Scientific Archive Department*, H–21, 620 p. (in Azerbaijani)
2. Khalilli, F. (2017). *Archaeological materials as sources for the study of Azerbaijani history (Based on the materials of the National Museum of History of Azerbaijan).* Baku: Avropa, 178 p. (in Azerbaijani)
3. Huseynova, L. A. (2024). The history of the study of archaeological monuments in the Chovdar area (Phase I, 1903–1921). *Journal of Social Sciences*, (1), 200–210. (in Azerbaijani)
4. Huseynova, L. (2024). The history of the study of archaeological monuments in the Chovdar area in 1926–1928 (Phase II). *Young Researcher Journal*, 106–116. (in Azerbaijani)
5. Huseynova, L. (2024). Archaeological excavations conducted in Chovdar during the years of independence (Phase III). *National Museum of Azerbaijan – 2024*, 206–216. (in Azerbaijani)
6. Huseynova, L., & Ibrahimova, I. (2025). Unpublished 1928 Chovdar excavations by Davud bey Sharifov. *First Forum of Young Ethnographers*, Quba, 6–7 June 2025, 247–251. (in Azerbaijani)
7. Huseynova, L., Jalilov, B., Huseynov, M., & Hasanov, V. (2024). Archaeological excavations conducted by the Chovdar archaeological expedition in 2024. *Archaeological and Anthropological Research in Azerbaijan: Results and Perspectives*, Baku, 14–15 May 2025, 45–46. (in Azerbaijani)
8. Huseynova, L. (2024). The Chovdar chapter of the Khojaly-Gadabay culture. *Science and Life Journal*, (2), 55–58. (in Azerbaijani)
9. Najafov, Sh. (2010). Brief report on the results of field research to visually identify archaeological monuments in construction areas related to the implementation of the "Chovdar gold project." *Azerbaijan National Academy of Sciences, Institute of Archaeology and Ethnography, YSAT Sector*, Baku, 12 p. (in Azerbaijani)
10. Rajabli, A. M. (2012). *Azerbaijani coins* (in Azerbaijani and Russian). Baku: Xalqbank, 358 p. (in Azerbaijani and Russian)
11. Handicrafts. (2008). *Archaeology of Azerbaijan*, in six volumes, Vol. VI. Baku: Sharq-Qarb, 632 p. (in Azerbaijani)
12. Gummel, Ya. (1939). Painted ceramics in the Ganjachay valley: (Grave No. 3). *Bulletin of the Azerbaijan Branch of the USSR Academy of Sciences*, (5), 37–41. (in Russian)
13. Dzhafarzade, I. (1939). Investigation of Old Ganja: (Report of the archaeological expedition of the Institute of History, Language, and Literature of the Azerbaijan SSR Academy of Sciences, 1938). *Bulletin of the Azerbaijan Branch of the USSR Academy of Sciences*, (3), 74–76. (in Russian)
14. Kechamanly, G. P. (1966). Bronze Age copper cauldrons from Azerbaijan. *Brief Reports of the Institute of Archaeology*, Issue 108, 142 p. Moscow: Nauka. (in Russian)
15. Pakhomov, E. A. (1938). *Coin hoards of Azerbaijan and other republics, territories and regions of the Caucasus* (Vol. 2). Baku. (in Russian)
16. Rajabli, A. M. (2014). *Coinage of the Safavid Azerbaijani state.* Baku, 116–120. (in Russian)

**17.** Sadykhzade, Sh. (1929). Excavations near the village of Chovdar, Ganja District, summer 1926. *Bulletin of Azkomstaris*, (4), 239–260. (in Russian)

**18.** Jalilov, B., Huseynov, M., & Huseynova, L. (2022). Research conducted in Chovdar in 2021. In *XVI International Turkish Culture, Art and Protection of Cultural Heritage Symposium / Art Activity*, 11–13 July 2022, Romania, 111–121. (in English)

**19.** *A new archaeological monument discovered in the Chovdar gold mine area.* Retrieved from https://azergold.az/ksm/tedbirler/covdar-qizil-medeni-erazisinde-yeni-arxeoloji-abide-askar-edilib (in Azerbaijani)

**20.** *ISLAMIC WORLD » Safavid » ‘Abbas II, 1052–1077 AH.* Retrieved from https://www.zeno.ru/showgallery.php?cat=2663 (in Russian)

**21.** *ISLAMIC WORLD » Late Northern and Southern Caucasus » Ganja Khanate » Copper coins of Ganja.* Retrieved from https://www.zeno.ru/showphoto.php?photo=360961&cat=1&ppuser=&sortby=d&way=desc (in Russian)

## ƏDƏBİYYAT

**1.** Aşurov, S., & Cəlilov, B. (2019). Çovdar nekropolu haqqında hesabat. *AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Elmi Arxiv şöbəsi*, H–21, 620 s.

**2.** Xəlilli, F. (2017). *Arxeoloji materiallar Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)*. Bakı: Avropa, 178 s.

**3.** Hüseynova, L. Ə. (2024). Çovdar ərazisində arxeoloji abidələrin öyrənilmə tarixi (I mərhələsi, 1903–1921-ci illər). *Sosial elmlər* jurnalı, (1), 200–210.

**4.** Hüseynova, L. (2024). 1926–1928-ci illərdə Çovdar ərazisində arxeoloji abidələrin öyrənilmə tarixi (II mərhələ). *Gənc tədqiqatçı* jurnalı, 106–116.

**5.** Hüseynova, L. (2024). Müstəqillik illərində Çovdarda aparılan arxeoloji qazıntılar (III mərhələ). *Milli Azərbaycan Muzeyi – 2024*, 206–216.

**6.** Hüseynova, L., & İbrahimova, İ. (2025). Davud bəy Şərifovun çap olunmayan 1928-ci il Çovdar qazıntıları. *Gənc etnoqrafların I forumu*, Quba, 6–7 iyun 2025, 247–251.

**7.** Hüseynova, L., Cəlilov, B., Hüseynov, M., & Həsənov, V. (2024). Çovdar arxeoloji ekspedisiyasının 2024-cü ildə apardığı arxeoloji qazıntılar. *Azərbaycanda arxeoloji və antropoloji tədqiqatlar: nəticələr və perspektivlər*, Bakı, 14–15 may 2025, 45–46.

**8.** Hüseynova, L. (2024). Xocalı-Gədəbəy mədəniyyətinin Çovdar səhifəsi. *Elm və həyat* jurnalı, (2), 55–58.

**9.** Nəcəfov, Ş. (2010). “Chovdar gold project” layihəsinin həyata keçirilməsi ilə əlaqədar olaraq tikinti sahələrində arxeoloji abidələrin varlığının vizual müəyyənləşdirilməsi üçün aparılmış çöl tədqiqat işlərinin nəticələrinə dair qısa hesabat. *AMEA AAİ, YSAT sektoru*, Bakı, 12 s.

**10.** Rəcəbli, Ə. M. (2012). *Azərbaycan sikkələri* (Azərb. və rus dil.). Bakı: Xalqbank, 358 s.

**11.** Sənətkarlıq (2008). *Azərbaycan arxeologiyası*, Altı cilddə, VI cild. Bakı: Şərq-Qərb, 632 s.

**12.** Гуммель, Я. (1939). Крашенная керамика в долине Гянджачая: (погребение № 3). *Известия АзФАН СССР*, (5), 37–41.

**13.** Джафарзаде, И. (1939). Обследование старой Гянджи: (отчет археологической экспедиции Института истории, языка и литературы АН Аз.ССР, 1938 г.). *Известия АзФАН СССР*, (3), 74–76.

**14.** Кечаманлы, Г. П. (1966). Медные котлы эпохи поздней бронзы из Азербайджана. *Краткие Сообщения Института Археологии*, Вып. 108, 142 с. Москва: Наука.

**15.** Пахомов, Е. А. (1938). *Монетные клады Азербайджана и других республик, краев и областей Кавказа* (Вып. 2). Баку.

**16.** Раджабли, А. М. (2014). *Монетное дело азербайджанского государства Сефевидов*. Баку, 116–120.
**17.** Садыхзаде, Ш. (1929). Раскопки близ села Човдар Гянджинского уезда, лето 1926 г. *Известия Азкомстариса*, (4), 239–260.
**18.** Jalilov, B., Huseynov, M., & Huseynova, L. (2022). Research conducted in Chovdar in 2021. In *XVI International Turkish Culture, Art and Protection of Cultural Heritage Symposium / Art Activity*, 11–13 July 2022, Romania, 111–121.
**19.** *Çovdar qızıl mədəni ərazisində yeni arxeoloji abidə aşkar edilib.* Retrieved from https://azergold.az/ksm/tedbirler/covdar-qizil-medeni-erazisinde-yeni-arxeoloji-abide-askar-edilib
**20.** *ISLAMIC WORLD » Safavid » ʻAbbas II, 1052–1077 AH.* Retrieved from https://www.zeno.ru/showgallery.php?cat=2663
**21.** *ISLAMIC WORLD » Late Northern and Southern Caucasus » Ganja Khanate » Copper coins of Ganja.* Retrieved from https://www.zeno.ru/showphoto.php?photo=360961&cat=1&ppuser=&sortby=d&way=desc